**Təsdiq edilmişdir**
**"Unibank"Kommersiya Bankı" Açıq**
**Səhmdar Cəmiyyətinin Səhmdarlarının İllik**
**Ümumi Yığıncağının 18 iyun 2020-ci il**
**tarixli 2 saylı Protokolu ilə təsdiq edilmişdir**

# "Unibank"Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti
# 2019-cu il üzrə
# İLLİK HESABAT

| | |
|---|---|
| 1. Emitentin təşkilati-hüquqi forması, tam və qısaldılmış adı, dövlət qeydiyyatının tarixi və nömrəsi: | Emitentin təşkilati-hüquqi forması:açıq səhmdar cəmiyyəti;<br>Emitentin tam adı: "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti;<br>qısaldılmış şəkildə "UNİBANK" Kommersiya Bankı<br>Dövlət qeydiyyat tarixi: 27.07.1992.<br>Dövlət qeydiyyat nömrəsi: 1300017201 |
| 2. Emitentin hüquqi ünvanı və olduğu yer: | Ünvan: Azərbaycan Respublikası, AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55; |
| 3. Emitentin adında və təşkilati-hüquqi formasında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları və təşkilati-hüquqi formaları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı və təşkilati-hüquqi forması, emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları və təşkilati-hüquqi formaları: | Emitent öz hazırki adını "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin 6 dekabr 2002-ci il tarixli Səhmdarlarının Ümumi Yığıncağının qərarı (Protokol № 2) və 27 dekabr 2002-ci il tarixdə "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında almışdır. Bank "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının və "MBANK" Səhmdar Kommersiya Bankının Səhmdarlarının 16 sentyabr 2002-ci il tarixli birgə Ümumi Yığıncağının qərarına (protokol № 1) və 15 oktyabr 2002-cil il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Nizamnaməsinə əsasən "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının "MBANK" Səhmdar Kommersiya Bankına qoşulması nəticəsində yenidən təşkil edilmişdir. Bu qoşulma nəticəsində "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının bütün hüquq və vəzifələri "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinə keçmişdir. Emitent "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və öhdəliklərini əldə etmişdir. |

| | |
|---|---|
| 4. emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar: | Aşağıdakı filiallar ləğv edilmişdir:<br>1. "14 saylı" filial - Bakı ş., Yasamal rayonu, Şıxəli Qurbanov küçəsi 2/15/ Füzuli küçəsi 15, qapı 4. AR Mərkəzi Bankı tərəfindən verilmiş icazənin qeydiyyat nömrəsi 73/14, icazənin verilmə tarixi 27 dekabr 2012-ci il<br>2. "İmişli" filialı - İmişli şəhəri, Heydər Əliyev prospekti, 111 A. AR Mərkəzi Bankı tərəfindən verilmiş icazənin qeydiyyat nömrəsi 73/28, icazənin verilmə tarixi 30 noyabr 2012-ci il<br>3. "9 saylı" filial - Bakı ş., Nərimanov rayonu, akademik Həsən Əliyev küçəsi 34/36 ( 1 saylı Bakı "ASAN Kommunal" Mərkəzi). AR Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş icazənin qeydiyyat nömrəsi 73/9, icazənin verilmə tarixi 25 aprel 2017-ci il |
| 5. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquq forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, yaxud cəmiyyətin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti: | Yoxdur. |
| 6. emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı: | Deyil. |
| 7. emitentin məşğul olduğu fəaliyyət istiqamətləri: | Bank fəaliyyəti |
| 8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri: | 14 dekabr 2010-cu il tarixli 73 saylı bank fəaliyyətinin həyata keçirilməsi üçün Bank lisenziyası.<br>Fəaliyyət növləri:<br>Milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi və "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş digər fəaliyyət növlərinin həyata keçirilməsi.<br>Lisenziya müddətsizdir. |
| 9. emitentin təklif etdiyi məhsullar və xidmətlər: | Kreditlərin verilməsi, Əmanətlərin cəlb olunması, hesablaşma kassa əməliyyatları və digər bank əməliyyatları |
| 10. emitentin işçilərinin sayı və onun rüblük dinamikası: | İşçi sayı:<br>2019 mart- 1206 əməkdaş<br>2019 iyun - 1193 əməkdaş<br>2019 sentyabr -1205 əməkdaş<br>2019 dekabr - 1228 əməkdaş |

| | |
|---|---|
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı: | **Müşahidə Şurası:**<br>Eldar Qəribov Mahmud oğlu (Sədr)<br>Emin Quliyev Natiq oğlu (Sədrin müavini)<br>Elxan Qəribli Əhməd oğlu (üzv)<br>Dr. Kamen Zaxariyev (üzv)<br>**İdarə Heyəti:**<br>Faiq Hüseynov Arif oğlu (Sədr)<br>Vəfa Kələntərova Tofiq qızı (üzv)<br>İqor Okayev Anatolyeviç (üzv)<br>**Audit Komitəsi:**<br>Faiq Zeynalov Vahib oğlu (Sədr)<br>Səbinə Tağıyeva Ramiz qızı (üzv)<br>Adil Hüseynov Şeyruz oğlu (üzv) |
| 12 emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı: | 8 fiziki və 2 hüquqi şəxs adi səhm sahibi |
| 13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı: | 1.Qəribov Eldar Mahmud oğlu, 35757739 ədəd sənədsiz, adlı adi səhm;<br>Emitentin Nizamnamə kapitalında 77.3839 % malikdir.<br>2.Avropa Yenidənqurma və İnkişaf Bankı (Birləşmiş Krallıq, London EC2A2JN, One Exchange Square), 4158737 ədəd sənədsiz, adlı adi səhm;<br>Emitentin Nizamnamə kapitalında 9 % malikdir.<br>3. Canley Finance S.A (Lüksemburq Böyük Hersoqluğu, Giyom Şneyder k., L-2522), 3 512 025 ədəd sənədsiz, adlı adi səhm;<br>Emitentin Nizamnamə kapitalında 7.6004% malikdir. |
| 14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | 1. Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1022, Nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55, VÖEN: 1401258741 olan "Unicapital" Açıq Səhmdar Cəmiyyəti – nizamnamə kapitalında pay- 100%; |
| **15. emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat:** | |
| 15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvanı): | 1. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 04 aprel 2019-cu il tarixində keçirilən Səhmdarların növbədənkənar ümumi yığıncağı;<br>2. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 04 iyul 2019-cu il tarixində keçirilən Səhmdarların İllik ümumi yığıncağı;<br>3. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 06 noyabr 2019-cu il tarixində keçirilən Səhmdarların növbəti ümumi yığıncağı və həmin iclasın davamı olaraq 04 dekabr 2019-cu il tarixində keçirilən iclas.<br>4. Bakı şəhəri, R.Behbudov küçəsi |

| | |
|---|---|
| | 55 ünvanında 25 dekabr 2019-cu il tarixində keçirilən Səhmdarların Növbədənkənar ümumi yığıncağı: |
| **15.2 ümumi yığıncaqda qəbul edilmiş qərarlar;** | **04 aprel 2019-ci il tarixində Səhmdarların növbədənkənar ümumi yığıncağında qəbul edilən qərarlar (1 saylı protokol):**<br>1. "Unibank"Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibində dəyişiklik edilməsi barədə.<br>2. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin korporativ aktlarına dəyişiklik və əlavələr edilməsi barədə:<br>2.1. Bankın Nizamnaməsinə:<br>2.2. Bankın idarəetmə strukturuna daxil olan orqanların Əsasnamələrinə:<br>2.3. Bankın idarəetmə strukturuna daxil olan orqanların səlahiyyət müddətləri barədə Səhmdarların Ümumi Yığıncağının Qərarlarına:<br>3. Əhəmiyyətli əqd barədə:<br>4. Bankın törəmə şirkəti "Unicapital" İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin kapitallaşdırılmasının artırılması üzrə proqrama baxılması barədə.<br>**04 iyul 2019-cu il tari xində S əhmdarların İllik ümumi yığıncağında qəbul edilən qərarlar (2 saylı protokol):**<br>1. 2018-ci il üzrə Bankın maliyyə hesabatlarının təsdiqi<br>2. Bankın investisiya qiymətli kağızlarının emitenti olaraq 2018-ci il üzrə illik hesabatının təsdiqi<br>**06 noyabr 2019-cu il tarixində Səhmdarların növbəti ümumi yığıncağında qəbul edilən qərarlar (3 saylı protokol):**<br>1. Bankın Müşahidə Şurasının üzvlərinin tərkibində dəyişikliklər edilməsi haqqında<br>2. Bankın İdarə Heyətinin üzvlərinin tərkibində dəyişikliklər edilməsi haqqında<br>3. 2019 – cu il üzrə "Unibank" Kommersiya Bankı ASC-nin kənar auditorunun təyin edilməsi barədə:<br>4. "Unibank" Kommersiya Bankı ASC-nin Nizamnaməsinə dəyişikliklər edilməsi haqqında<br>5. Bankın imtiyazlı səhmlərinin buraxılması haqqında.<br>**04 dekabr 2019-cu il tarixində Səhmdarların Növbəti Ümumi Yığıncağında qəbul edilən qərarlar (06 noyabr 2019-cu il tarixində keçirilən Səhmdarların Növbəti Ümumi Yığıncağının davamı- 3 saylı protokol)**<br>1. Bankın Müşahidə Şurasının üzvlərinin tərkibində dəyişikliklər edilməsi haqqında |

| | |
|---|---|
| | **25 dekabr 2019-cu il tarixində Səhmdarların Növbədənkənar ümumi yığıncağında qəbul edilən qərarlar (4 saylı protokol):**<br>1. Bankın idarəetmə strukturuna daxil olan orqanlarına təyinatlar barədə |
| **16.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):** | |
| 16.1. investisiya qiymətli kağızın növü və forması: | 1 000 ədəd faizli. sənədsiz. adlı təmin edilməmiş istiqraz:<br>46 208 219 ədəd sənədsiz adlı adi səhm. |
| 16.2 investisiya qiymətli kağızların dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi: | -1 000 ədəd faizli. sənədsiz. adlı təmin edilməmiş istiqrazın dövlət qeydiyyat nömrəsi AZ2011002022 dövlət qeydiyyat tarixi 28.11.2017-ci il:<br>-20 796 000 ədəd sənədsiz. adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024. dövlət qeydiyyat tarixi 29.03.2012-ci il:<br>-18 059 226 ədəd sənədsiz. adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024. dövlət qeydiyyat tarixi 18.05.2017 -ci il:<br>- 5 147 100 ədəd sənədsiz. adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024. dövlət qeydiyyat tarixi 23.08.2017 -ci il:<br>-2 205 893 ədəd sənədsiz. adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024. dövlət qeydiyyat tarixi 12.12.2017-ci il. |
| 16.3 investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri: | 1 000 ədəd faizli. sənədsiz. adlı təmin edilməmiş istiqraz. hər birinin nominal dəyəri 10 000 ABŞ dolları:<br>- 46 208 219 ədəd sənədsiz adlı adi səhm. nominal dəyəri 2.72 manat |
| 16.4.investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri: | - 10 000 000 ABŞ dolları məbləğində istiqraz:<br>- 125 686 355.68 manat məbləğində səhm |
| 16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir): | Ödənilməyib |
| 16.6 faizli istiqrazlar buraxılışı haqqında məlumatda-istiqrazlar üzrə gəlirliyinin illik faiz dərəcəsi: | 1000 ədəd faizli təmin edilməmiş sənədsiz istiqraz üzrə İstiqrazın nominal dəyərindən 6 faiz illik olmaqla istiqrazların tədavül müddəti ərzində hər 90 (doxsan) təqvim gününün başa çatması tarixindən növbəti 3 iş günündən gec olmayaraq faiz ödənilir. |
| 16.7 investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda): | "Bakı Fond Birjası" QSC. Bakı şəhəri. Yasamal rayonu. Həsən bəy Zərdabi prospekti 2A. Şokolad Tower. AZ1141 |

| | |
|---|---|
| 17. emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:<br>17.1.əqdin məbləği:<br>17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi: | - |
| 18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği:<br>18.2.aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Aidiyyəti şəxslərlə bağlanmış əqdlərin ümumi məbləği 1 553 327 manat.<br>Ümumi sayı: 80 ədəd<br>Müştəri baxımından - hamısı fiziki şəxs |
| 19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | 18 iyun 2020-ci il |
| 20. hesabatın açıqlanma mənbəyi haqqında məlumat | "Unibank" Kommersiya Bankının rəsmi saytı və kütləvi informasiya vasitələri, qanunvericiliklə müəyyən edilmiş vahid məlumat resursu |

İdarə Heyətinin Sədri — Faiq Hüseynov

Baş maliyyə inzibatçısı — Vəfa Kələntərova

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

# MÜSTƏQİL AUDİTORLARIN HESABATI

"Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:

*Rəy*

Biz "Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas uçot siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Qrupun 31 dekabr 2019-cu il tarixində maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

*Rəy üçün Əsas*

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlar əsasında bizim məsuliyyətlərimiz hesabatımızın Konsolidə edilmiş *Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti* bölümündə təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (MBESŞ Məcəlləsi) əsasən Qrupdan müstəqilik və MBESŞ Məcəlləsi üzrə digər etika məsuliyyətlərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Maliyyə Hesabatlarına görə Rəhbərliyin və Audit Komitəsinin Məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit Komitəsi, Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

*Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti*

Bizim məqsədimiz bu konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz də daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən edilmiş uçot təxminlərinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında qənaətə gəldiyimiz halda, auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqəti cəlb etməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın təqdim edilməsi tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidə edilmiş maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz Audit Komitəsinə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

10 aprel 2020-ci il
Bakı, Azərbaycan Respublikası

# "UNİBANK KOMMERSİYA BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
## 31 DEKABR 2019-CU İL TARİXİNƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|---|
| AKTİVLƏR | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 143,749 | 109,988 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | | 3,642 | 3,128 |
| Digər banklardan alınacaq vəsaitlər | 8 | 14,211 | 90,605 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 9, 32 | 454,558 | 388,821 |
| İnvestisiya qiymətli kağızları | 10, 32 | 84,736 | 6,640 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 26 | 6,351 | 7,778 |
| Bina və avadanlıqlar | 11 | 64,155 | 49,937 |
| Qeyri-maddi aktivlər | 11 | 14,534 | 12,548 |
| Digər maliyyə aktivləri | 12 | 20,539 | 7,781 |
| Digər aktivlər | 13 | 16,811 | 17,503 |
| CƏMİ AKTİVLƏR | | 823,286 | 694,729 |
| ÖHDƏLİKLƏR VƏ KAPİTAL | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklara və digər maliyyə təşkilatlarına ödəniləcək vəsaitlər | 14 | 30,139 | 16,208 |
| Müştəri hesabları | 15, 32 | 550,217 | 467,149 |
| Müddətli borc vəsaitləri | 16, 32 | 77,553 | 129,689 |
| Subordinasiya borcları | 19, 32 | 17,029 | 18,725 |
| İcarə öhdəliyi | 17 | 3,830 | - |
| Digər öhdəliklər | 18 | 8,934 | 6,928 |
| CƏMİ ÖHDƏLİKLƏR | | 687,702 | 638,699 |
| KAPİTAL | | | |
| Bankın sahiblərinə məxsus kapital: | | | |
| Səhmdar kapitalı | 20 | 125,686 | 125,686 |
| Səhm mükafatı | 20 | 484 | 484 |
| Digər ehtiyatlar | | 154 | - |
| Bölüşdürülməmiş mənfəət/(yığılmış zərər) | | 9,260 | (70,140) |
| CƏMİ KAPİTAL | | 135,584 | 56,030 |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL | | 823,286 | 694,729 |

**İdarə heyəti tərəfindən:**

Faiq Hüseynov
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

Vəfa Kələntərova
Baş Maliyyə Direktoru
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

10-95-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## "UNİBANK KOMMERSİYA BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 21, 32 | 84,666 | 59,344 |
| Faiz xərcləri | 21, 32 | (33,254) | (23,198) |
| **Ehtimal olunan kredit zərərlərindən əvvəl xalis faiz gəliri** | 21 | 51,412 | 36,146 |
| Ehtimal olunan kredit zərərlərinin bərpası | 22, 32 | 60,362 | 34,532 |
| **Xalis faiz gəliri** | | 111,774 | 70,678 |
| Haqq və komissiya gəlirləri | 23, 32 | 17,073 | 13,113 |
| Haqq və komissiya xərcləri | 23 | (10,658) | (7,452) |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 24 | 3,623 | 4,670 |
| Digər aktivlər üzrə dəyərsizləşmə zərəri | 13 | (1,543) | (2,020) |
| Zəmanətlər və kreditlə bağlı öhdəliklər üzrə ehtimal olunan kredit zərərləri üzrə (tutulma)/bərpa | 22 | (435) | 4,246 |
| İnzibati və digər əməliyyat xərcləri | 25, 32 | (53,099) | (53,309) |
| İlkin dəyərləndirmədə müştərilərə verilmiş kreditlər və müddətli borc vəsaitləri üzrə ədalətli dəyər gəliri | 9, 16 | 13,118 | - |
| Digər əməliyyat gəlirləri, xalis | | 1,035 | 1,019 |
| **Mənfəət vergisindən əvvəl gəlir** | | 80,888 | 30,945 |
| Mənfəət vergisi xərci | 26 | (1,488) | (82) |
| **İl üzrə xalis gəlir** | | 79,400 | 30,863 |
| DİGƏR MƏCMU GƏLİR | | | |
| **Sonradan mənfəət və ya zərər üzrə yenidən təsnifləşdiriləcək maddələr** | | | |
| Borc investisiya qiymətli kağızları üzrə ədalətli dəyər gəliri | 10 | 193 | - |
| Birbaşa digər məcmu gəlirdə qeydə alınmış mənfəət vergisi | 26 | (39) | - |
| **İl üzrə digər məcmu gəlir** | | 154 | - |
| İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR | | 79,554 | 30,863 |
| Hər səhmə düşən gəlir, əsas və azaldılmış | 27 | 1.72 | 0.67 |

**İdarə heyəti tərəfindən:**

Faiq Hüseynov
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

Vəfa Kələntərova
Baş Maliyyə Direktoru
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

10-95-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## "UNİBANK KOMMERSİYA BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Səhm mükafatı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərər) | Cəmi kapital |
|---|---|---|---|---|---|
| 1 yanvar 2018-ci il | 125,686 | 484 | - | (101,003) | 25,167 |
| İl üzrə cəmi məcmu gəlir | - | - | - | 30,863 | 30,863 |
| 31 dekabr 2018-ci il | 125,686 | 484 | - | (70,140) | 56,030 |
| İl üzrə xalis gəlir | - | - | - | 79,400 | 79,400 |
| İl üzrə digər məcmu gəlir | - | - | 154 | - | 154 |
| 31 dekabr 2019-cu il | 125,686 | 484 | 154 | 9,260 | 135,584 |

**İdarə heyəti tərəfindən:**

Faiq Hüseynov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

Vəfa Kələntərova

Baş Maliyyə Direktoru
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

10-95-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## “UNİBANK KOMMERSİYA BANKI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Alınmış faizlər | | 81,054 | 63,627 |
| Ödənilmiş faizlər | | (31,561) | (22,093) |
| Alınmış haqq və komissıyalar | | 17,071 | 13,168 |
| Ödənilmiş haqq və komissıyalar | | (10,866) | (7,432) |
| Xarici valyuta üzrə xalis gəlir | | 3,536 | 5,112 |
| Əldə olunmuş digər əməliyyat gəliri, xalis | | 241 | 417 |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | | (46,389) | (49,197) |
| Ödənilmiş mənfəət vergisi | | (100) | (82) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | **12,986** | **3,520** |
| Əməliyyat aktivləri üzrə (artma)/azalma: | | | |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | | (514) | (214) |
| Digər banklardan alınacaq vəsaitlər | | 78,152 | 2,436 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | 927 | (67,208) |
| Digər maliyyə aktivləri | | (12,788) | 1,520 |
| Digər aktivlər | | (28) | (494) |
| Əməliyyat öhdəlikləri üzrə artma/(azalma): | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | | 13,917 | 12,915 |
| Müştəri hesabları | | 83,519 | 100,348 |
| Digər öhdəliklər | | 389 | 757 |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | | **176,560** | **53,580** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| İnvestisiya qiymətli kağızlarının satın alınması | | (77,191) | (578) |
| Bina, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (17,732) | (11,900) |
| Bina və avadanlıqların satışından daxilolmalar | | 331 | 367 |
| **İnvestisiya fəaliyyətləri üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(94,592)** | **(12,111)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Müddətli borc vəsaitləri üzrə daxilolmalar | 16 | 38,334 | 20,156 |
| Müddətli borc vəsaitlərinin ödənilməsi | 16 | (84,162) | (34,399) |
| Subordinasiya borclarının ödənilməsi | 19 | (1,700) | (125) |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi | | (1,016) | - |
| **Maliyyələşdirmə fəaliyyətləri üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(48,544)** | **(14,368)** |

## "UNİBANK KOMMERSİYA BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə | 31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | 337 | (456) |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım | | 33,761 | 26,645 |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 7 | 109,988 | 83,343 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 7 | **143,749** | **109,988** |

**İdarə heyəti tərəfindən:**

Faiq Hüseynov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

Vəfa Kələntərova

Baş Maliyyə Direktoru
Bakı, Azərbaycan Respublikası

10 aprel 2020-ci il

10-95-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.